

Qismət MƏSİM

***

Hələ istirahət elə,
Böyük unudulmağın var qarşıda...

Böyük bildiyin dünya
gəzməklə bitməyəcək, sandığın kainat
əslində görəcəksən,
ananın varlığından kiçik,
balanın öpüşü qədərdir...

Hələ harasıdır...
Məndən olsa, içdən bağışla hamını,
hamı öləcək...
Dərədə quruldayan qurbağalar da...

Məndən olsa, az sev hamını...
Çox yaşıl qalanda payız gəlir,
ya da barsızlıq...
Dostum, bilirsən, əclaflıq ən çox nədədir?
İsti sevgilərdən
doğulur etibarsızlıq!

## DİVARDAKI TABLO

Uşaqlığımdan sevincimi apardılar,
gəncliyimdən sevgimi
xain adamlar...
Kimsə oğurladı ümüdlərimi...
Heç itimiz də hürmədi,
heç hasarımız da bilmədi.
Bir gün saçım diş ağartdı,
bir gün dişim ləkələndi...
Elə maraqlı xatırladım
sarı donunu...
İçim silkələndi, evim tərpəndi.

...Mən bulaq öpmüşəm, çiçək öpmüşəm,
Mənə məhəbbəti bunlar öyrədib...

***

...Bir gün son görüşdən evə gələsən,
Görəsən, asıbdı kəndir özünü.
Baxasan dərdinin ağırlığından
Sınmış budaq basıb çölün düzünü.

Başına daş düşə intiharının,
Özünü asmaq da çıxa yadından
Gedib dərs alasan mamırın öpüb,
Qayanın uçurum istedadından.

Bağlaya biləsən özünə ancaq
Sənin cığırınla yeriyənləri.
Atasan özündən yerin dibinə...

## QƏFİL ETİBARI BÜDRƏYƏNLƏRİ...

Elə ki yağış döyür bu köhnəlmiş dam-daşı,
Pəncərəmizdən axır qapımızın göz yaşı.
Buludlar öpüşdükcə işıqlanır komamız,
Diksinir divarların qəribsəmiş yaddaşı.

Pıçıldayır saxsı dam -səhərə nə qalıb ki,..
Beşikdəki körpənin burnu donub soyuqdan.
Küləklər sığal çəkir ananın laylasına,
Pərdələr yallı gedir bu nəğməyə bayaqdan...

İndicə sönəcək şam, qələm səndən yazacaq,
Bir az beynim dönəcək, bir az fikrim azacaq.
Əllərimin yadına salacağam saçını,
Yenə qızım darayan saçlarım dağılacaq.
Bir siqaret yandırıb səhərə boylanıram,
Sözlərin gəlib keçir fikrimin küçəsindən.
Yavaşca səsləyirəm, oyanmasın balaca.
Vərəqə damcı düşür pəncərə şüşəsindən.

Elə ki yağış döyür bu köhnəlmiş dam-daşı,
Pəncərəmizdən axır qapımızın göz yaşı.
Buludlar öpüşdükcə işıqlanır komamız,
Diksinir divarların qəribsəmiş yaddaşı.

## MƏN HARDAN BİLİM Kİ, XƏYANƏT NƏDİR?

Mən körpə olandan yaylaq sevmişəm,
Mən qaya sevmişəm, çəmən sevmişəm.
Məndə dağ eşqi var, dərə eşqi var,
Mən nə sevmişəmsə, içdən sevmişəm.
Mən hardan bilim ki, xəyanət nədir?

Çay mənim gözümün nəmini silib,
Gizlənqaçda məni vələs gizlədib.
Mən bulaq öpmüşəm, çiçək öpmüşəm;
Mənə məhəbbəti bunlar öyrədib,
Mən hardan bilim ki, xəyanət nədir?

Buluda dəymişəm, yerə dəymişəm,
İçimdə qıfıldı vəfa tilsimi.
Bu yumru daş mənə həyat öyrədib,
Mən yaxşı bilirəm daşlıq dərsimi.
Mən hardan bilim ki, xəyanət nədir?

Bax yağış isladıb, dolu döyübdü,
Çətrim hansı dərdə dayanmayıb ki?..
Hə... nanə nəfəslim, payız ağıllım,
İndi öz qəlbini özün danışdır,
Mən hardan bilim ki, xəyanət nədir?

